## *METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ*

UOT 37.01.

***Dilqəm Qasım oğlu Quliyev***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

***Sadıq Kazım oğlu Sadıqov***
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

***Etibar Dilqəm oğlu Quliyev***
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

# SƏRBƏST, YUNAN-ROMA, ŞƏRQ GÜLƏŞİ VƏ ƏLBƏYAXA DÖYÜŞ NÖVLƏRİ FƏNNİ ÜZRƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİ

***Дильгам Гасым оглы Гулиев***
*доктор педагогических наук, профессор*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта,*

***Садыг Кязим оглы Садыгов***
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

***Этибар Дильгам оглы Гулиев***
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

# ОРГАНИЗАЦИЯ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ ПО ПРЕДМЕТАМ ВОЛЬНОЙ, ГРЕКО-РИМСКОЙ, ВОСТОЧНОЙ БОРЬБЫ И ВИДАМ РУКОПАШНОГО БОЯ

***Dilgam Gasim Guliyev***
*doctor of sciences in pedagogy, professor*
*Azerbaijan State Academy of Physical Culture and Sports*

***Sadig Kyazim Sadigov***
*Azerbaijan State Academy of Physical Culture and Sports*

***Etibar Dilgum Guliyev***
*Azerbaijan State Academy of Physical Culture and Sports*

# SEVERAL PEDAGOGICAL RECOMMENDATIONS ON ORGANIZATION OF INDEPENDENT WORK OF THE STUDENTS ON FREE STYLE, GREEK-ROMAN, EAST WRESTLING AND HAND-TO-HAND COMBAT DISCIPLINES

**Xülasə:** Məqalədə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının “İdmanın təkmübarizlik növləri”nin kafedrasında Bolonya prosesinin tətbiqi, təhsilin kredit sisteminin mahiyyəti, tədris prosesində tələbənin müstəqilliyinin artırılması, biliklərin mənimsənilməsində interaktiv metodların təhlili, tələbənin müstəqil işinin tədris prosesində artırılması yolları, tələbə müstəqil işi, onun planlaşdırılması, təşkili, forma və metodları, müstəqil işinin mahiyyəti, «tələbələrin müstəqil işi»n dar və geniş mənada təhlili, mühazirə məşğələləri zamanı tələbə müstəqil işinin təşkilinin bəzi pedaqoji məsələləri açıqlanmışdır.

***Açar sözlər:*** *müstəqil iş", "sərbəst iş", ali məktəb, auditoriya, auditoriyadan kənar iş, "pedaqoji yanaşma", referat, təlimin texniki vasitələri, kompyuter texnologiyası, tələbə, elmi cəmiyyət, debat, əqli hücum, qruplarla iş, işgüzar oyunlar*

**Резюме:** В данной статье описываются применение Болонского процесса, суть кредитной системы образования, повышение независимости студентов в учебном процессе, анализ интерактивных методов усвоения знаний, пути развития самостоятельной работы студентов в процессе обучения, самостоятельная работа студента, ее планирование, организация, формы и методы, сущность самостоятельной работы студента, анализ "самостоятельной работы студентов" в узком и широком смысле, некоторые педагогические вопросы самостоятельной работы студентов во время лекций.

***Ключевые слова:*** *самостоятельная работа, независимая работа, высшее учебное заведение, аудитория, внеаудиторная работа, "педагогический подход", реферат, технические средства обучения, компьютерная технология, студент, научное общество, дебат, мозговой штурм, работа в группах, деловые игры.*

**Summary:** The article is devoted to the application of Bologna process, the essence of education credit system, increment of the student's independence in education process, analysis of interactive methods in knowledge acquisition, ways of development of student's independent work in education process, student's independent work, it's planning, organization, forms and methods, essence of student's independent work, the analysis of "students' independent works" in narrow and wide sense, some pedagogical issues of student's independent work during lectures.

***Key words:*** *"independent work", "free work", high school, auditorium, extracurricular work, "pedagogical approach", abstract, technical ways of training, computer technologies, student, scientific society, debate, banzai charge (mental attack), group works, professional games.*

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ""İdmanın təkmübarizlik növlərinin kafedrasında Bolonya prosesinin tətbiqi, təhsilin kredit sisteminə keçidi ixtisasçı tələbələrin daha çox müstəqil çalışmasını tələb edir. Müstəqil çalışan, əməli fəaliyyət göstərən tələbə daha çox bilik qazanır və öyrənir.

Tədqiqatın aktuallığı: Məlum olduğu kimi, keçən əsrin 80-ci illərinə qədər tədris prosesində biliklərin hazır şəkildə yeni nəslə ötürülməsinə üstünlük verilirdi. Bu texnologiya, müəyyən bir dövr ərzində müsbət rol oynamışdır. Lakin təcrübə göstərdi ki, hətta hər beş ildən bir ixtisasartırma kurslarında iştirak etmələrinə baxmayaraq, belə texnologiya ilə hazırlanan kadrların çox az hissəsi gələcək fəaliyyətində müstəqil olaraq öz elmi-pedaqoji və peşə səviyyələrini artıra bilir. Biliyin yeni nəslə ötürülməsi bir proses kimi tədqiqatçıları həmişə narahat etmişdir. Buna görə də belə tədqiqatlar aktuallıq kəsb edir.

Hələ XIX əsrdən məşhur alman pedaqoqu və psixoloqu A. Disterveqin belə bir fikri məlumdur ki, pis müəllim həqiqəti təqdim edir, yaxşısı isə onu tapmağı öyrədir. Bu istiqamətdə mühazirə başlıca olaraq tələbələrin nəzəri hazırlığına, məntiqi nəticələrə gələ bilmək, ümumiləşdirmələr apara bilmək bacarığının formalaşmasına, müstəqil işin əhəmiyyətini başa düşməyə və onun icrasına meyllənməyə, ilkin mənbələrlə və ədəbiyyatla işləməyin məqsədini anlamağa və s. bu kimi xüsusiyyətlərə yiyələnmələrinə kömək etməlidir [2].

Tədris prosesində tələbənin müstəqilliyinin artırılması biliklərin mənimsənilməsində interaktiv metodlardan daha geniş istifadə edilməsini, tələbənin yaradıcı qabiliyyətlərinin inkişafını, onun tələbat və imkanlarını nəzərə alaraq təlimdə fərdi işin imkanlarını artırır. Burada söhbət tələbə müstəqil işinin tədris prosesində artırılmasından gedir. Tələbə müstəqil işi, onun planlaşdırılması, təşkili, forma və metodları, onun nəticəsinin izlənilməsi ali məktəb praktikasında ən zəif nöqtələrdən biridir.

Halbuki bu problemlər nəzəri cəhətdən həmişə alimlərin diqqət mərkəzində olmuşdur. L.Q. Vyatkinin, M.Q. Qarunovun, B.P. Yesipovun, V.A. Kozakovun, İ.Y. Lernerin, M.İ. Maxmutovun, N.A. Polovnikovun, P.İ. Pidkasistinın tədqiqatlarında müstəqil iş problemi ümum didaktik, psixoloji və metodik istiqamətdən tədqiq edilmişdir [1].

Həmin tədqiqatlara əsaslanaraq, ilk növbədə, tələbə müstəqil işinin mahiyyətini açıqla-

yaq. Ümumiyyətlə, müstəqil işin mahiyyətinin açıqlanmasında alimlər arasında fikir müxtəlifliyi vardır. Məsələn, bəzi tədqiqatçılar tələbə müstəqil işini tələbələrin özlərinə məxsus fəaliyyəti kimi, bəziləri onların idarə edilən fəaliyyəti kimi başa düşürlər; bəziləri isə mühazirə, seminar və praktik məşğələləri, laborator işləri müstəqil işə daxil edir, bunların köməyilə müəllimlərin verdikləri məlumatları tələbələrin müstəqil düşüncədən keçirə bildiklərini və müəllimin köməyi olmadan müəyyən tapşırıqları, işləri sərbəst yerinə yetirə bildiklərini qeyd edirlər.

Ümumiyyətlə, pedaqoji ədəbiyyatda «tələbələrin müstəqil işi» anlayışına dar və geniş mənada izah verilir. Tələbənin müstəqil işi dar mənada mənbələrin, dərsliklərin, əlavə ədəbiyyatın, mühazirə konspektlərinin, seminara, imtahana hazırlaşarkən istifadə edilən ədəbiyyatın oxunması və icmallaşdırılması, geniş mənada isə tədris proqramı üzrə keçilənlərin, məşğələlərdə verilən materialların qavranılması, ictimai işlərdə inamın, əqidənin formalaşması və möhkəmlənməsi, əhali arasında biliklərin təbliği və s. kimi başa düşülür.

Tələbələrin "Sərbəst iş" mövzuları üzərində işləməsi fənnin daha dərindən mənimsənilməsinə kömək etdiyi kimi onların, tədqiqatçılıq bacarığını da inkişaf etdirir, elmə həvəsini artırır, müstəqil çalışmaq vərdişlərini möhkəmləndirir.

XXI əsrdə meydana gələn dəyişikliklər, yeniliklər, Azərbaycan Respublikasının müstəqil dövlət olaraq fəaliyyəti, demokratik və humanist prinsiplərə üstünlük verilməsi, tədrisdə yeni didaktik tərzlər və metodlar, innovasiyalar və s. istər mühazirənin məzmununda, istər onun elmi, didaktik, metodik istiqamətində, istərsə də şərh və təqdimat üsullarında yeniliklərdən fəal istifadəni zəruri etmişdir. Ona görə də mühazirənin tələbə müstəqil işi üçün yaranmış imkanlarından istifadə etməmək mühazirənin əhəmiyyətini aşağı salmaq demək olar.

Müasir dövrdə yüksəkixtisaslı mütəxəssis və elmi-pedaqoji kadr hazırlığına bu istiqamətdən yanaşılır, onların hazırlanmasının qarşısına keyfiyyət baxımından yeni tələb - tələbəni təhsilin biliyi passiv mənimsəyən obyektindən, biliyin fəal yaradıcısı olan subyektinə çevirmək tələbi qoyulur. Belə ki, müasir tələbə müəyyən bir elmi problemi formalaşdırmağı, onun həlli yollarını araşdırıb tapmağı, nəticəni müəyyənləşdirməyi və onun düzgünlüyünü sübut etməyi bacarmalıdır.

Deməli, biliyin hazır şəkildə yeni nəslə ötürülməsi (bilik öyrətmək) texnologiyası öyrənənlərin biliyi müstəqil yolla əldə edə bilməsinə şərait yaradılması (bilikləri öyrənməyi öyrətmək) texnologiyası ilə əvəz edilməlidir. Pedaqoqlar biliyin yeni nəslə verilməsi texnologiyasında baş verən belə dəyişikliyi təlim paradiqmasından təhsil paradiqmasına keçid kimi qiymətləndirirlər: müasir dövrün ali təhsil qarşısına qoyduğu tələb bundan ibarətdir. Məsələnin belə qoyuluşu ali məktəbdə tələbə müstəqil işinin tədris prosesinin əsas tərkib hissələrindən birinə çevrildiyini qəbul etməyi tələb edir.

Psixologiyadan məlumdur ki, insan bilik üzərində nə qədər hərtərəfli işləsə, ona müxtəlif cəhətlərdən yanaşsa, o hafizədə daha möhkəm yer tutur. Çünki, tələbə material üzərində müstəqil işləyərkən onu hərtərəfli təhlil edir, şüurunda eyni bir məsələyə bir neçə dəfə qayıtmalı olur. Bütün bunlar da həmin materialın hafizədə uzun müddət qalmasına, praktik əhəmiyyət kəsb etməsinə səbəb olur [10].

Müasir gənc mütəxəssis yüksək bilik və dünyagörüşünə malik olmaqla bərabər, həm də tədqiqatçılıq qabiliyyətlərinə malik olmalı, müstəqil düşünməyi, müstəqil qərarlar çıxarmağı bacarmalıdır. Bunun üçün də indiki şəraitdə - təhsilin qlobal xarakter aldığı bir dövrdə tələbənin proqram materialına sahib olması minimum tələb hesab edilə bilər, geniş nəzəri bilik və dünyagörüşünə sahib olmaq üçün isə daha çox oxumalı, əlavə və ilk mənbələrdən istifadə etməli və bilikləri genişləndirmək və tətbiq etmək lazımdır.

Bu baxımdan fənni tədris edən müəllim tələbələrə müstəqil çalışmağı, daha çox düşünməyi məsləhət görməli, onların tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməlidir.

Mahiyyət etibarilə ali məktəbdə müstəqil işin təşkili tələbələrdə sərbəst öyrənmə fəaliyyətini gücləndirməyə xidmət edir. Tədris planlarının təhlili göstərir ki, ali məktəblərdə tədricən auditoriya məşğələlərinin saatlarının miqdarı azalır və buna müvafiq olaraq verilən nəzəri biliklərin də həcmi azalır.

Dünyanın qabaqcıl ali 142 məktəblərində də auditoriya məşğələlərinin saatlarının miqdarı azdır. Burada məqsəd tələbələrin auditoriya məşğələlərində həddən artıq yüklənməsinin qar-

şısını almaq və tələbələrin müstəqil bilik əldə etmələrinə şərait yaratmaqdır. Tələbə müstəqil işi növlərindən asılı olaraq həm auditoriyada, həm də auditoriyadan kənarda həyata keçirilə bilər. Ali məktəblərdə apardığımız tədqiqatlar zamanı tələbə müstəqil işinin təşkili baxımından çoxlu nöqsanların mövcud olduğu müəyyənləşdi. Məsələn, mühazirə məşğələləri zamanı biliklərin mənimsənilməsi üçün ən azı tədris materialını anlamaq və yaradıcı şəkildə qavramaq zəruridir. Reallıqda isə, əksər hallarda, xüsusən də aşağı kurs tələbələri mühazirəni yadda saxlamaqla kifayətlənirlər. Müəllimlər isə bu incə məqama diqqət yetirmir, tələbələrə verdikləri materialı həddən artıq yüksək qiymətləndirirlər. Halbuki təcrübə göstərir ki, proqramın olmasına baxmayaraq, müəllimlər fəndaxili və fənlərarası əlaqənin, ardıcıllıq və varislik prinsiplərinin tələblərini tez-tez pozurlar. Daxili məntiqi əlaqələr zəif olduqda isə tələbənin bu bilikləri yadda saxlamaq imkanları da az olur. Belə meyl xüsusilə fundamental hazırlıq tələb edən fənlərin öyrənilməsi zamanı daha təhlükəli xarakter daşıyır. Həm auditoriyada, həm də auditoriyadan kənar tələbələrin müstəqil işi bir-biri ilə qarşılıqlı əlaqədədir. Bəzən auditoriyada yol verilən nöqsan auditoriyadan kənar tələbə müstəqil işinin keyfiyyətinə mənfi təsir göstərir. Məsələn, təhsil standartlarında auditoriyadan kənar məşğələlərə auditoriya saatının yarısı qədər vaxt ayrılmasına baxmayaraq, bu normativə, demək olar ki, az hallarda əməl edilir. Auditoriyadan kənar məşğələlər üçün tapşırığın sayı, həcmi adətən kafedra və müəllimlər tərəfindən müəyyənləşdirilir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu materiallar hazırlanarkən «nə qədər çox və çətin olsa, bir o qədər yaxşıdır» prinsipinə daha çox istinad edilir, heç də həmişə verilən tapşırığın çətinlik dərəcəsi və onun hazırlanması üçün tələb olunan vaxt düzgün müəyyən edilmir. Bu isə əksər hallarda tələbənin evə verilən tapşırıqları formal yerinə yetirməsi, yoldaşından köçürməsi və s. ilə nəticələnir [13].

Göründüyü kimi, hər hansı bir ehtiyatsız «pedaqoji yanaşma» tələbənin müstəqil işi nəinki yaradıcılıqla yerinə yetirməsinə mənfi təsir göstərir, hətta müstəqil işin formal yerinə yetirilməsinə, pedaqoji cəhətdən heç bir əhəmiyyət daşımayan tapşırığa çevrilməsinə səbəb olur. Müəllimlər həm auditoriya, həm də auditoriyadan kənar tələbə müstəqil işinin keyfiyyətini artırmaq üçün bu məqamlara xüsusi diqqət yetirməlidirlər.

Mühazirə ali məktəbdə təlimin əsas təşkili forması və eyni zamanda təlimin fəal metodu kimi qiymətləndirilir. Təcrübədə mühazirənin məqsədəuyğun olaraq informasiyaverici, inam və əqidə formalaşdırıcı, tələbələri müstəqil işə yönəldici formalarından, eləcə də problemli mühazirə, dialoq-mühazirə və s.-yə istifadə olunur.

Təəssüf ki, ali məktəbdə apardığımız tədqiqatlar zamanı mühazirəyə müstəqil yiyələnmə vasitəsi kimi yanaşanların sayının çox az olduğu müəyyən edilmişdir. Belə ki, «mühazirənin rolu və əhəmiyyətini başlıca olaraq nədə görürsünüz?» sualına respondentlərin 65%-i «proqram materialının ardıcıl şərhində» və «proqrama uyğun olaraq informasiya verməkdə», yalnız 27%-i «tələbənin idrak fəaliyyətinin inkişafı və məntiqinin gücləndirilməsində» «elmin həyatı potensialının dərk edilməsində» müstəqil yiyələnmə imkan və yollarının açıqlanmasında» cavablarını vermişlər.

Halbuki mühazirə məşğələləri tələbənin müstəqil işinin təşkili baxımından geniş imkanlara malikdir. Fikrimizi sübut etmək üçün, qabaqcıl təcrübənin öyrənilməsi baxımından ali məktəbdə təsadüf etdiyimiz mühazirə formalarına diqqət yetirək [1,14]:

1. Əvvəlcədən icmallaşdırılmış mühazirə. Mühazirəçi dərslikdən və ya əlavə ədəbiyyatdan istifadə edərək, keçəcəyi mövzunu icmallaşdırır. Dərs zamanı heç bir improvizə etmədən, sadəcə, həmin icmalı oxuyur. Belə mühazirədə faktlar da, şərtlər də köhnə olur. Əlbəttə, belə mühazirə tələbəni müstəqil işə həvəsləndirmir.

2. Tezislər əsasında oxunan mühazirə. Mühazirəçi mühazirəyə hazırlaşarkən deyəcəyi fikirləri qruplaşdırır və mətnin tezislərini müəyyənləşdirir. Əlbəttə, bu da geniş mətnə yox, yaddaşa əsaslanır. Belə mühazirə əvvəlki formadan əhəmiyyətlidir, lakin əhatəliliyi, faktların elmi təhlili ilə diqqəti cəlb etmir. Harada problem situasiyası yaratmaq, harada diskussiyaya yer vermək, harada interaktiv metoddan istifadə etmək və s. kimi fəallıq yaradan məqamlar da yerində olmur, ya da tamam unudulur.

3. Tələbə ilə dialoqa üstünlük verilən mühazirə. Mühazirəçi mövzuya uyğun olan ədəbiyyatla ətraflı tanış olur, onları öyrənir, əhatəli mühazirə mətni hazırlayır və ya onu şərh üçün

tezisləşdirir. Mühazirənin planını tərtib edir, istifadə edilən ədəbiyyatı göstərir, tələbəyə hazırlaşmaq üçün məsləhət görülən ədəbiyyatın siyahısını müəyyənləşdirir. Mühazirə mətnini müşayiət edən sxemləri, qrafikləri, slaydları hazırlayır. Düşündürücü sualları hazırlayır. Fənnin digər mövzuları ilə, eləcə də digər elmlərlə əlaqə üçün məqamları müəyyənləşdirir və məzmunu konkretləşdirir və s. Mühazirəçi hazırladığı mətni onun planı və tezisləri üzrə səlis, rəvan, aydın nitqlə, məntiqi əlaqəliliklə, faktların elmi təhlili ilə şərh edir, tələbələri mühazirənin fəal iştirakçılarına çevirir, onları düşündürür, tez-tez tələbələrlə dialoqa girir, qarşıya qoyulmuş problemi birlikdə həll edir, düşüncələri ümumiləşdirir və nəticə çıxarır. Beləliklə, təkcə rasional baxımdan deyil, emosional cəhətdən də yüksək səviyyəli məşğələ alınır.

4. Sual-cavab üzərində qurulan mühazirə. Müəllim mühazirə mətnini əvvəlcədən tələbələrə təqdim edir və mühazirənin keçiriləcəyi vaxt tələbələrə elan olunur. Mühazirə zamanı müəllim mühazirənin məzmununu səlis, rəvan, aydın nitqlə, məntiqi əlaqəliliklə, faktların elmi təhlilini qısa şəkildə tələbələrə çatdırır. Sonra tələbələr müəllimə suallar verir. O, suallara birbaşa cavab vermir, tələbə ilə dialoqa girərək, problemin tələbə tərəfindən həll edilməsi üçün şərait yaradır, onları axtarıcılıq və ya qismən axtarıcılıq prosesinə cəlb edir, auditoriyada tələbələrin diskussiyaya girməsinə imkan yaradır. Nəticədə tələbələri mühazirənin fəal iştirakçılarına çevirir, onları düşündürür və qarşıya qoyulmuş problemi birlikdə həll edir. Belə mühazirələr tələbənin idraki fəallığı ilə fərqlənir.

Bütövlükdə götürdükdə tələbələri düşündürən, onların da iştirakilə problemləri həll edəedə oxunan və duyğuları oyadan mühazirələr daha diqqətlə, daha maraqla dinlənilir. Təkcə material toplamaq və mətn hazırlamaq mühazirəçi üçün azdır. Mühazirəçi yüksək nitq mədəniyyətinə malik olaraq, dilin zənginliyindən, jest və mimikadan istifadə etdikdə, əyaniliyi yerliyerində mövzu ilə sıx bağlayaraq nümayiş etdirdikdə, mühazirə tempini gözlədikdə, mühazirəni toplanmış materialların sadəcə, ötürücüsü kimi deyil, ideyalar, fikirlər müəllifi kimi inamla, sübutlu-dəlilli, ağıllı və orijinal həmsöhbət, əsl alim kimi çatdırdıqda tələbələrin böyük marağına və razılığına səbəb olur.

Tələbələr elmin inkişafını proqnozlaşdıran, yenilikçi alim-müəllimin hər fikrinə diqqətli olmağa çalışır, ondan öyrənir və onun məsləhət və tapşırıqlarını böyük inamla yerinə yetirirlər – nəticədə müstəqil fikri fəallığa yiyələnir, müstəqil işlərin öhdəsindən lazımınca gələ bilirlər.

Burada mühazirəçinin şəxsiyyət bütövlüyü, əxlaqi, mənəvi saflığı, yüksək elmi-ixtisas hazırlığı, humanizmi, xeyirxahlığı, ədaləti, obyektivliyi, prinsipiallığı, tələbələrlə işləmək həvəsi, alimlik dəyəri, natiqliyi mühüm təsiredici amil rolunu oynayır. Digər bir amil isə mühazirənin elmi-metodik təminatının yüksək olması, dil gözəlliyidir. Belə olmasa, mühazirəçi öz funksiyasını yerinə yetirə bilməz.

Bir neçə onillik bundan əvvəl dərslik və digər tədris vəsaitlərinin az olduğu bir vaxtda mühazirə bilik, məlumat verən əsas vasitə idi. İndi isə belə deyil. Mühazirə oyadıcı, düşündürücü, istiqamətverici, inkişafetdirici, müstəqil fəaliyyətə hazırlayıcı bir vasitəyə çevrilməlidir. Biliyi, məlumatı hazırda dərsliklərdən, kitablardan, İnternetdən və s. almaq olar.

Amma alim-müəllim baxışını, səsini, ifadə tərzini, şərh, tapşırıq tonunu, məqama, ehtiyaca görə problemin izahını, ünsiyyətin görünən və simvolik təzahürünü yalnız insanın özü həyata keçirə bilər.

Ona görə də, hazırda mühazirə daha çox psixoloji təsirə malik, insanı ünsiyyəti yaşadan və insanilik yaradan bir funksiyanı daşımağa başlamışdır. Odur ki, mühazirəni elə qurmaq, elə aparmaq lazımdır ki, o, tələbələrin sosial, psixi, elmi-idraki, müstəqil fəaliyyət imkanlarını artırsın.

Buradan da belə nəticə çıxır: mühazirənin müasir əhəmiyyəti bir də ondadır ki, tələbə müstəqil işi üçün geniş imkana malikdir. Hər bir mühazirəçi bu imkandan daha səmərəli istifadə etməklə tələbə müstəqil işinin sonrakı mərhələlərinin və səviyyəsinin reallığını təmin edə bilər.

Alimlərin tədqiqatlarında da mühazirəyə sadəcə, mövzunun dərslik və ya hər hansı ədəbiyyat üzrə nəqli kimi baxılmır. İ.M. Feyqenberqin yazdığı kimi «…mühazirə sualları üzə çıxarmalı və onlara kitabda, səlahiyyətli adamlarla (xüsusən müəllimlərlə) söhbətdə, müşahidələrdə, düşüncələrində, eksperimentlərdə cavab tapmağa həvəsləndirməli, nəhayət, cəhdgöstərmə

qabiliyyətini inkişaf etdirməli, lazımi məlumatı tapmağı və onları təhlil etməyi öyrətməlidir».

Müşahidələrimizə əsasən deyə bilərik ki, dəqiq və texniki elmlərə, təbiət elmlərinə nisbətən humanitar və ictimai elmlər, xüsusilə pedaqoji elmlər üzrə oxunan mühazirələrin böyük əksəriyyəti passiv informasiyaötürücü və məlumatverici xarakterə malik olur. Lakin son bir neçə ildə pedaqoji elmlər üzrə mühazirələrin didaktik metodik səviyyəsi xeyli artmış, interaktiv metodlardan istifadəyə keçilmiş və mühazirələrin hazırlayıcı və inkişafetdirici səviyyəsi, tələbəni müstəqil işə, axtarıcılığa yönəltmə səviyyəsi yüksəlmişdir.

Deyilənlərin praktik əhəmiyyətini müəyyənləşdirmək məqsədi ilə biz "İdmanın təkmübarizlik növlərinin kafedrasının fənni üzrə tələbələrin "sərbəst iş" mövzularının yazılmasına dair metodik məsləhət sərbəst, Yunan-Ronma, cüdo, karate və əlbəyaxa döyüş növləri üzrə ixtisası üzrə təhsil alan üç kursu (I-III kurs) tədqiqata cəlb etdik. "İdmanın təkmübarizlik növlərinin kafedrasında mühazirə aparan müəllimlərin işinə müdaxilə etmədən nəticələri öyrəndik. Bizim təqdim etdiyimiz sistemin əsas tələbləri bunlar oldu" [7,14]:

1. Mühazirələrin başlanğıcından problem yaradılsın, suallar qoyulsun.

2. Məlumat və informasiyalar əsas anlayışlar üzərində qurulsun. Çatmayan hissələri, deyilməyən məlumatı əldə etmək tələbələrə həvalə edilsin.

3. Problemlər həll edilərkən faktlara, nümunələrə müraciət zamanı tələbələrin fəallığına diqqət yetirilsin. Onların fikir və mülahizələri şərhə daxil olunsun və hamı tərəfindən ona münasibət bildirilsin, müəllim özü həqiqəti ümumiləşdirsin.

4. Mühazirə zamanı sxemlərdən, qrafiklərdən, slaydlardan və s. texniki vasitələrdən istifadə edilsin.

5. Mövzunun şərhi zamanı tələbələrin idrak fəallığını artırmaq üçün debat, əqli hücum, qruplarla iş, işgüzar oyunlar və s. bu kimi metodlardan istifadə olunsun.

6. Tələbələrə referat hazırlamaq, ədəbiyyatla tanış olmaq üçün zəruri tapşırıqlar verilsin və s.

Mühazirəçi müəllimlər təqdim etdiyimiz tələbləri nəzərə alaraq kurs tələbələrinə oxuduqları mühazirələrdə müstəqil fikri fəaliyyətə, müstəqil işə həvəs göstərən tələbələrin sayının mühazirədən-mühazirəyə artdığının şahidi oldular. Mühazirələri təklif etdiyimiz metodika üzrə aparılan qruplarda kursun sonunda eksperimentin nə dərəcədə uğurlu olmasını müəyyən etmək üçün müxtəlif mövzularda diskussiyalar apardıq. Onlardan birinə diqqət yetirək. Proqrama müvafiq olaraq ilk mövzuda «Pedaqogikanın digər elmlərlə qarşılıqlı əlaqəsi» sualı var idi. Həmin sual üzrə tələbələrlə müzakirə aparıldı. Mühazirənin ənənəvi tədris təcrübəsi əsasında aparıldığı tədris qruplarında tələbələr pedaqogikanın qarşılıqlı əlaqə saxladığı elmləri sadaladılar. Bir neçə tələbə pedaqogikanın nə üçün psixologiya, biologiya, fəlsəfə, sosiologiya ilə əlaqəsi olmasının səbəblərini də göstərdi. Lakin mühazirədə və dərslikdə verilən məlumatlardan irəli gedə bilmədilər, həm də cavablar şəxsi münasibəti və təcrübi biliyi əhatə etmirdi, verilmiş materiallardan öyrənilmişlərin ifadəsi idi. Amma təklif edilən metodika ilə işləyən mühazirəçilərin qruplarında pedaqogikanın, müəllimin qeyd etmədiyi, bir neçə elmlə (məsələn, kosmoqrafiya, ekologiya, demoqrafiya, kulturologiya, ilahiyyat və s.) əlaqədar olduğunu bildirdilər və bunu mütaliə etdikləri ədəbiyyatdan əlavə, öz şəxsi iddiaları ilə sübut etməyə çalışdılar, pedaqogikanın qarşılıqlı əlaqə saxladığı elmlərin sxemini təqdim etdilər və sxemdə bu elmlərin əlaqəsinin nə dərəcədə, nə üçün olduğunu sübuta çalışdılar, həm də şablon deyil, hərə öz münasibətini bildirməyə meyl göstərdi.

Göründüyü kimi, mühazirə tələbələri həm də seminar və laboratoriya məşğələlərində fəal olmağa hazırlaya bilir. Ali məktəblərdə pedaqoji eksperiment apararkən müəyyən oldu ki, o müəllim tələbələrin istər müstəqil intellektual, yaxud ictimai və digər fəaliyyət sahələri üzrə fəallığına nail ola bilir ki, o, təlim-tərbiyə prosesində fəaliyyətini 5 əsas komponent üzrə ardıcıl qurur və onu inkişaf etdirir. Həmin komponentlər bunlardır: bilik, bacarıq, vərdiş, münasibət-ünsiyyət, fəaliyyətdə yaradıcılıq.

Bilik, bacarıq, vərdiş çoxdan qəbul edilmiş pedaqoji anlayışlardır. Lakin nə qədər qəribə olsa da, münasibət-ünsiyyət və fəaliyyətdə yaradıcılıq komponentləri tədqiqatçılar **və** alim pedaqoqlar tərəfindən birmənalı şəkildə rəğbətləndirilsə də, pedaqoji ədəbiyyatda fəal anlayışlar kimi diqqəti cəlb etməmişdir. Halbuki, pedaqoji proses insanlararası münasibət və ünsiyyət-

də təzahür edir və bu subyektin subyektə təsiri, yaxud subyektlərarası əlaqələr fonunda təcəssüm olunur. Mühazirə oxuyan müəllimi onlarla tələbə dinləyir, onun təkcə sözləri deyil, səsinin tonu, təbəssümü, baxışı da dinləyənlərlə əlaqəni, ünsiyyəti formalaşdırır. Müəllim-tələbə arasında yaranan rəğbətli, ehtiramlı münasibət, qarşılıqlı anlaşma ünsiyyəti tələbədə mühazirəçinin məşğələlərinə, dediyi sözlərə, apardığı kursa məhəbbət yaradır. Hətta alim mühazirəçinin özünün şəxsi yaradıcılıq fəaliyyəti onu sevən, dəyərləndirən tələbələrə sirayət edir, onlarda müəllimləri kimi mühazirə söyləyə bilmək, əsərlər yazmaq həvəsi oyadır.

Beləliklə, mühazirəçi metodik tapşırıq və tələbləri, həm də şəxsi nümunəsi ilə tələbəyə psixoloji təsir göstərir. Təcrübə və müşahidələrimizdən aldığımız bu effekt, təəssüf ki, tədqiqatlarda öz əksini tapmır. Başqa sözlə desək, tədqiqatçılar bu effektə diqqət yetirməmişlər. Bunun əsas səbəbi odur ki, uzun illər ərzində yaşadığımız ölkədə öyrədən-öyrənən münasibəti subyekt-obyekt münasibəti kimi qurulmuşdur. Hazırda bu münasibət subyekt-subyekt kimi qəbul edildiyindən insaniliyin - insani münasibət və ünsiyyətin həm müəllim, həm də tələbə fəaliyyətinin uğurlu qurulmasında həlledici psixoloji təsirə malik olduğu qabarıq şəkildə meydana çıxır.

Pedaqoji eksperiment zamanı biz tələbələrin müstəqil işə stimullaşdırılmasına xüsusi önəm veririk. Məlum oldu ki, mühazirəçi tələbələri müstəqil işə stimullaşdırdıqda daha yüksək nəticə əldə olunur. Belə hallarda psixoloji təsir ön planda dayanır. Stimul sanki tələbəni oyanışa səsləyir, impuls göndərir, hissə, fikrə, hərəkətə təkan verir. Mühazirədə irəli sürülmüş fikir və ideyalara münasibət bildirmək üçün tələbələr həm qrup formasında, həm də fərdi formada işə qoşula bilirlər. Bu zaman qrupların yaxud fərdlərin arasında bir növ rəqabət, yarış yaranır. Müəllim ən düzgün, ən optimal tələbə fikrini, elmi əsaslandırılmış münasibəti yüksək qiymətləndirir. Stimul rəğbətləndiriləni daha yeni axtarışlara sövq etdiyi kimi, digərlərini də fəallaşmağa, əlavə ədəbiyyatdan istifadəyə həvəsləndirir. Maraqlı bir məqama da diqqət yetirmək istərdik. Bəzən tələbə müstəqil işinin mühazirənin hansı mərhələsində həyata keçirilməsinin mümkünlüyü məsələsi müzakirə olunur. Fikrimizcə, belə mübahisə yersizdir. Belə ki, eksperiment zamanı müəyyən oldu ki, mühazirədə tələbə müstəqil işi imkanları üçün həm girişdə, həm şərh zamanı didaktik səviyyənin təminatında, həm də ümumiləşdirmə və nəticələrin yekunlaşdırılmasında tapmaq mümkündür.

Beləliklə, deyilənləri ümumiləşdirərək, mühazirənin tələbə müstəqil işi üçün açdığı imkanları aşağıdakı kimi müəyyənləşdirmək olar [12].

1. Nəzəri hazırlıq istiqamətində: - Anlayışlara münasibət formalaşdırılır; - Problemi qaldırmaq metodikası ilə tanışlıq yaradır; - Faktları ümumiləşdirmə, müqayisə aparma və nəticə çıxara bilmə qabiliyyətini inkişaf etdirir; - Psixoloji yanaşma və təsir mexanizmi ilə tanış olur; - Elmi-nəzəri məlumatlarla silahlanır.

2. Praktik işə hazırlıq istiqamətində: - Didaktik tələbləri praktik olaraq öyrənir; - Mətnin hazırlanması, şərhi, mənbələrdən, ədəbiyyatdan istifadə metodikasına yiyələnir;

- Təlimin texniki vasitələrindən və kompüter texnologiyasından istifadənin əhəmiyyətini dərk edir. Mühazirə seminar və praktiki məşğələlərlə əlaqələndirildikdə (mühazirədə qaldırılan problemlərin seminarda tələbələr tərəfindən həll edilməsi, yaxud fakt və məlumatların dərinləşdirilməsi və s.) daha səmərəli nəticələr verir.

Tədqiqat prosesində müəyyənləşdirdiyimiz bir cəhəti də qeyd etmək istərdik: tələbə müstəqil işinin uğurlu təşkili və həyata keçirilməsi üçün tələbələri irəlicədən psixoloji və nəzəri cəhətdən hazırlamaq lazımdır. Bu daha çox problemli mühazirəyə aiddir. Ümumiyyətlə, pedaqoji elmlər üzrə mühazirələr məzmunca yaradıcılığın inkişaf etdirilməsi yollarını, formalarını, faktik elmi nəticələri və s. əhatə etməklə tələbələrin bu istiqamətdə psixoloji hazırlığına kömək edir. Mühazirə elmi-nəzəri biliklər verməklə idrak fəallığını artırır, dərketməni gücləndirir. Yaradıcılıq isə idraka, onun imkanlarına, xarakterə, meyl və qabiliyyətə söykənir. Məlum həqiqətdir ki, yaradıcılıq əqli fəaliyyətin ən yüksək səviyyəsidir. Mühazirə və digər müstəqil işlər tələbəni bu «ən yüksək səviyyəyə» qaldırmasa da, onu bunun üçün hazırlayır.

Tələbə müstəqil işi tələbənin fənnə, elmə, ixtisasa məhəbbəti ilə cilalanarsa, yaradıcılıq işinə çevrilə bilər. Bir məqama da diqqət yetirmək vacibdir. Mühazirə zamanı auditoriyada tələbələrə verilən materialları onun necə mənim-

sədiyinə nəzarət edilməlidir. Təbii ki, bunun üçün müxtəlif (məsələn, dialoq) metodlarından istifadə edərək, tələbənin müəllimin mühazirə dediyi anda məlumatları necə mənimsədiyini müəyyənləşdirmək mümkündür.

Bu zaman tələbələrə iki istiqamətdə suallar verilə bilər: a) müəllim mühazirədə bir müddət əvvəl dediyi məsələ ilə əlaqədar verdiyi suallar; b) yaradıcı suallar. Tələbə suallara cavab verərkən müəllim bir tərəfdən tələbənin deyilən məsələləri necə mənimsədiyini izləyə, digər tərəfdən tələbənin məsələyə yaradıcı yanaşa bilib-bilmədiyini müəyyənləşdirə bilir. Belə məqamlarda təcrübəli müəllimlər adətən problem situasiya yaradır və problemi tələbələrlə birlikdə həll etməyə çalışırlar. Əgər tələbələr problemi həll edə bilməsələr, özü onlara müəyyən köməklik edir, elə şərait yaradır ki, sonda tələbələr problemi «özləri» həll etmiş olsunlar.

Deyilənlərdən aydın olur ki, tələbə müstəqil işinin təşkilində mühazirə başlanğıc rol oynayır. Başqa sözlə desək, tələbə müstəqil işinin təşkili məhz mühazirə məşğələsində başlanır, seminar və praktik məşğələlərdə və auditoriyadan kənar formalar vasitəsilə davam edir. Burada bir məntiq aydındır: mühazirə məşğələsində tələbə müstəqil işi nə qədər səmərəli təşkil edilərsə, tələbənin sonrakı idraki fəaliyyətinin səmərəsi bir o qədər yüksək olur. Məsələnin belə qoyuluşu tələbə müstəqil işinin təşkilində mühazirə məşğələlərinin əhəmiyyətini artırır.

Təcrübələrdən məlum olur ki, tədris işi yüksək təşkil edilən akademiyada tələbələr elmi-tədqiqat işlərinə də böyük həvəs göstərir, "Sərbəst iş" üzərində də fəallıqla çalışırlar. "Sərbəst iş" mövzuları tələbələr tərəfindən sərbəst şəkildə seçilir. Fənn müəlliminin təklifi ilə də tələbə mövzu götürüb üzərində işləyə bilər.

"Sərbəst iş" tələbənin kiçik elmi tədqiqat işidir – deyə bilərik. Tələbə mühazirədən eşitdiklərini, seminar məşğələlərindən öyrəndiklərini, əlavə materiallardan mənimsədiklərindən istifadə edərək, sərbəst iş üzərində müstəqil olaraq yaradıcı fəaliyyət göstərir. Tələbənin sərbəst, müstəqil şəkildə çalışması bir tərəfdən proqram materialının nə dərəcədə mənimsədiyinin, o biri tərəfdən isə öz biliyini təcrübədə tətbiq etmək bacarığına malik olub-olmadığının bariz göstəricisidir.

Akademiyada fənlərin tədrisi prosesində, tələbələr müstəqil işləməyi, ilk mənbələrdən baş açmağı bacarmalıdırlar. Aparılan elmi-pedaqoji tədqiqatlardan məlum olur ki, kafedrada ixtisasçı tələbələri hər gün 5-6 saat müstəqil zehni işlə məşğul olmalı, mütaliə etməli, elmlə məşğul olmalıdır.

Tələbə kitab və ya başqa material üzərində sərbəst çalışan vaxt oradakı faktlar, həqiqətlər artıq onun malı olur; o əldə etdiyi biliklərə möhkəm inanır. Belə bilik isə tədricən əqidə və inama çevrilir. Buradan belə nəticə çıxarmaq olar ki, biz kafedrada ixtisasçı tələbələrini biliklər üzərində dərindən, sərbəst, müstəqil işləməyə sövq etməklə, eyni zamanda onlarda elmi dünyagörüş də formalaşdırmış oluruq. Yalnız məsələdən müstəqil surətdə baş çıxaran öz qüvvəsinə inanır və bunu başqalarının qarşısında müvəffəqiyyətlə müdafiə edir.

Tələbə kitab üzərində bu və ya digər material üzərində sərbəst çalışan vaxt oradakı həqiqətlər onun bilik və əqidəsinə çevrilir və onda biliyə möhkəm inam yaranır. Tələbələrin öz üzərində müntəzəm və müstəqil işləmələri onlarda geniş dünyagörüş formalaşdırmaqla bərabər, həm də faydalı vərdişlər yaradır. Tələbələrə bir deyil, bir neçə mənbədən istifadə etməyi öyrətmək lazımdır. Çünki təcrübə göstərir ki, orta məktəbi qurtaran şagirdlərin heç də hamısı sərbəst şəkildə elmi mənbələr üzərində, müxtəlif kitablar üzərində işləməyi bilmirlər. Ona görə də birinci kurs tələbələrinə fənn müəllimi tələbələrə müstəqil çalışmaq üçün, elmi mənbələrdən istifadə etmək üçün lazımi məsləhətlər verməli, tədris etdiyi mövzularla bağlı ədəbiyyat siyahısı verməli və onlardan istifadə yollarını da göstərməlidir.

Təcrübələrdən aydın olur ki, birinci kurs ixtisasçı tələbələrinin ilk mənbələr üzərində işləmələri və onların çıxardıqları nəticələr zəif olur, bəzən səthi və bəzən də kitabın üzü köçürülür. Lakin, doğru, düzgün məsləhətlər, tövsiyələr nəticəsində və tələbələrin də müstəqil işləməsi sayəsində tədricən bu proses inkişaf edir və tələbələr müstəqil və sərbəst şəkildə mənbələr üzərində işləməyə alışırlar ki, bu da gələcəkdə onların elmi işlər yazmasına, buraxılış işləri üzərində daha yaxşı işləmələrinə xeyli köməklik etmiş olur. Tələbə mövzunu seçdikdən sonra fənn müəllimi ilə birlikdə plan və ədəbiyyat siyahısını müəyyənləşdirməlidir.

Mövzu ilə bağlı ədəbiyyat oxunur, təhlil edilir, qeydlər götürülür, çıxarışlar edilir, məntiqi nəticələr çıxarılır, ümumiləşdirmələr aparılaraq yazıya alınır. Sərbəst iş yaradıcı şəkildə yerinə yetirilməlidir. Kitabların, qəzet və jurnal məqalələrinin üzü köçürülməməli, müəlliflərin fikirləri olduğu kimi götürülməməlidir. Bütün mətnin başlıca məzmununu səciyyələndirən fikrin əsas məqamları aşkarlanmalı, oxunan materiala, müəllifin fikirlərinə yaradıcı münasibət göstərilməli, ümumiləşmiş fikirlər, lakonik ifadələr yazılmalıdır.

Əlbəttə, hər hansı bir "Sərbəst iş" mövzusu girişlə başlayır, sonra mövzunun əsas hissəsi işlənilir, sonda isə mövzuya nəticə vurulur, istifadə olunmuş ədəbiyyat siyahısı sonda göstərilir. Tamamlanmış "Sərbəst iş" fənn müəlliminə təhvil verilir. Müəllim onu oxuyur və qiymətləndirir. Bunu da xüsusi olaraq qeyd edək ki, təklif olunan "Sərbəst iş" mövzularından tələbələr elmi iş, kurs işi, referat, yaxud hər hansı bir pedaqoji konfransda, Tələbə Elmi Cəmiyyətində məruzə mövzusu kimi də götürüb işləyə bilər.

Sərbəst işləri yazmaq sadəcə hər hansı mövzunun yazılıb müəllimə təhvil verilməsi kimi başa düşülməməlidir. Bu mövzuları hazırlayarkən tələbələrin araşdırmaq və tədqiqat aparmaq bacarıqları formalaşır. Eləcə də gələcəkdə elmi tədqiqatlar aparmağa sövq edir, yaradıcılıq qabiliyyətinin inkişafına səbəb olur.

Aparılan pedaqoji tədqiqatların nəticələrindən aydın olmuşdur ki, bunun əsas səbəbi onlarda bilikləri müstəqil mənimsəmə vərdişinin olmamasıdır. Müasir dövrdə nəzəri və praktik elm çox sürətlə inkişaf edir, yeniləşir, dəyişir. Hətta bir sıra hallarda dərsliyə düşmüş bəzi elmi nəticələr sürətlə yeniləri ilə əvəz olunur, dərslikdə dəyişiklik zərurəti yaranır və ya yenicə həyat vəsiqəsi almış mülahizələrin bir qismi dərsliklərə, mühazirə kurslarına düşməmiş köhnəlir.

Deyilənlərdən aydın olur ki, təlim prosesində təkcə hazır biliklər verməklə «uzağa getmək olmaz», öyrənənlər üçün biliyin müstəqil yolla əldə edilməsinə şərait yaradılmalıdır. İstər ümumtəhsil məktəblərində, istərsə də ali təhsil müəssisələrində öyrədənlərin, tərbiyə edənlərin vəzifəsi, təkcə hazır bilikləri verməkdən ibarət olmayıb, həm də biliyi müstəqil qazanmaq yollarını öyrətməkdən ibarətdir

Araşdırma və müşahidələrimizə, o cümlədən bu istiqamətdə aparılan tədqiqatlara əsaslanaraq deyə bilərik ki, tələbələrin müstəqil işi müəllimlər tərəfindən təşkil edilərək tələbələri müstəqil öyrənməyə, işləməyə, fəaliyyət göstərməyə, müstəqil fikir və mülahizələr söyləməyə, yaradıcı işgüzarlığa və s.-ə təhrik edən pedaqoji prosesdir.

**Tədqiqatın obyekti:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının binası, auditoriya, auditoriyadan kənar iş.

**Tədqiqatın məqsədi:** informasiya texnologiyalarının geniş vüsət aldığı bir dövrdə tələbəyə müstəqil olaraq «öyrənməyi öyrətmək» zərurəti probleminə həsr olunmuş, burada həmçinin ali məktəblərdə mühazirə məşğələləri zamanı tələbə müstəqil işinin təşkilinin bəzi pedaqoji məsələləri açıqlanmışdır.

**Tədqiqatın vəzifələri:**

- cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yaradıcılıq meyllərinə malik, öz təhsilini daima artırmaq;

-yeniliklər etməyə hazır olmaq;

- yüksək ixtisaslı mütəxəssislər və elmi-pedaqoji kadrlar yetişdirməkdən ibarətdir;

-biliyin yeni nəslə verilməsi texnologiyasına diqqəti cəlb etmək.

Tədqiqat prosesində belə nəticəyə gəlmək olar ki, sərbəst, yunan-roma, şərq güləşi və əlbəyaxa döyüş növlərinin fənni üzrə tələbələrin "müstəqil iş" mövzusunun təşkilinin bəzi pedaqoji məsələləri tədqiq olunur.

**Ədəbiyyat**

1. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005.
2. Əhmədov B. Elmi-texniki inqilab və müəllim hazırlığı // Azərbaycan məktəbi, 1978, № 6
3. Sosial-sciences@bsu.az
4. Pedaqogika. Bakı: Çaşoğlu, 2003.
5. Ali məktəbdə tələbə müstəqil işinin imkanları yolları. Bakı: Çaşıoğlu, 2005
6. Təhsilin sosial-pedaqoji məsələləri. Bakı: Turan evi, 2008
7. Ali məktəbdə tələbələrin müstəqil işinin təşkilinə yeni yanaşmaya dair. BDU-nun xəbərləri, 2003, № 2-3
8. Ali məktəbdə tələbə müstəqil işinin mədəniyyəti məsələsinə dair. «Körpü» qəz., 2003, 4 noyabr

9. Ali məktəbdə tələbə müstəqil işinin beynəlxalq standartlara uyğun müqayisəli tətbiqi // BDU xəbərləri, 2008, № 1
10. Ali məktəbdə tələbə müstəqil işinin təşkilinin pedaqoji-psixoloji şərtləri. "Elmi əsərlər", 2004.
11. Pedaqogika. Bakalavr pilləsi üçün proqram, 2007.
12. Tələbələrin müstəqil işində yeni istiqamət / "Pedaqogika elminin inkişafında yeni mərhələ" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: BDU, 2011.
13. Disterveq A. Pedaqoji ideyalar və imkanlar. 1857.
14. Григорьевич В.Л. Основы педагогики высшей школы. Саратов: Изд-во Сарат. ун-та, 1997.

**E-mail:** mr.quliyev@mail.ru
**Rəyçilər:** *prof.* **X.K. Qurbanov,**
*prof.* **Q.M. Cəfərov**

**Redaksiyaya daxil olub:** 24.10.2019